# Nəsimi rayonu yeniləşmə və yüksəliş yollarında inamla irəliləyir

***Keçən il respublikamızda olduğu kimi, Bakının Nəsimi rayonunda da davamlı sosial-iqtisadi inkişaf təmin edilmiş, bir sıra layihələr uğurla həyata keçirilmişdir. İstehsalın həcminin artımını, quruculuq-abadlıq işlərinin miqyasının genişləndirilməsini, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsini rəhbər fəaliyyətində prioritetə çevirən Nəsimi Rayon İcra Hakimiyyəti ilboyu işini qanunçuluq, aşkarlıq və ictimai rəyin nəzərə alınması prinsipləri əsasında qurmuşdur.***



Prezident İlham Əliyevin ilin əvvəlində yerli icra strukturlarına verdiyi tapşırıqların icrasının qısa müddətdə təmin edilməsi ilə bağlı Nəsimi RİHB Aparatı, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, ikili tabelikdə olan yerli strukturlar, müəssisə və təşkilatların əlbir, məqsədyönlü fəaliyyəti səmərəli olmuşdur. Ərazidə iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi, sağlam biznes mühitinin formalaşdırılması, yeni investisiyaların cəlb edilməsi yönündə növbəti irəliləyişə nail olunmuşdur. İlboyu infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin rifahının yüksəldilməsi ilə bağlı silsilə tədbirlər icra olunmuşdur.

2016-cı ildə qazanılmış nailiyyətlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata



heçirilən irimiqyaslı, davamlı yeniləşmə və yüksəliş strategiyasının düzgünlüyünü və tarixi önəmini bir daha təsdiqləyir. Dövlət başçısı paytaxtın mərkəzi rayonunun problemlərinin həllini daim nəzarətdə saxlayır, gerçəkləşdirilən layihələri ardıcıl himayə edir. Keçən il də ölkə Prezidenti dəfələrlə rayonda olmuş, bir sıra müxtəlif təyinatlı obyektlərin inşası, təmiri və yenidənqurulması işləri ilə tanış olmuş, açılış mərasimlərində şəxsən iştirak etmiş, rayon sakinlərinə təbriklərini və xeyir-duasını çatdırmışdır. Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun rəhbəri, birinci xanım Mehriban Əliyevanın rayona hər gəlişi nəsimililərin həyatında əlamətdar hadisə olmuş, onları yeni nailiyyətlərə ruhlandırmışdır.

**Prezident İlham Əliyevin aprelin 19-da Bakı Metropoliteninin yeni bənövşəyi xəttinin “Avtovağzal” və “Memar Əcəmi” stansiyalarının açılışına gəlməsi, dövlət başçısının və xanımının bir gün sonra Səməd Vurğun və A.Bakıxanov küçələrinin kəsişməsindəki ərazidə yeni salınmış istirahət parkında olmaları, ölkə rəhbərinin sentyabrın 7-də şəhid Abdulla Rəhimov adına 247 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanışlığı, Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və vitse-prezidenti Leyla xanım Əliyevanın oktyabrın 6-da yeni salınan “Qızılgül bağı”na gəlmələri, ölkə Prezidentinin və xanımının dekabrın 5-də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Regional Data və Beynəlxalq Kommutasiya Mərkəzlərinin açılış mərasimində iştirakları 2016-cı ildə Nəsimi rayonunun tarixinə unudulmaz günlər kimi yazılmışdır.**

Ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırıl-



ması, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb olunması ilə bağlı tapşırıqların təmin edilməsi məqsədilə Nəsimi Rayon İcra Hakimiyyətində xüsusi qərargah yaradılmışdır. Rayonun icra strukturlarının, o cümlədən Məşğulluq Mərkəzinin, Sosial Müdafiə Fondunun, Sosial Müdafiə Mərkəzinin rayon şöbələrinin rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri qərargahın tərkibinə daxil edilmiş, qaynar xətt təşkil olunmuşdur. RİH-də sosial-iqtisadi inkişafla bağlı proqnozlar, habelə sahibkarların, vətəndaşların qəbulu zamanı irəli sürülən fikirlər və qaynar xəttlə daxil olan məlumatlar əsasında təkliflər hazırlanmış, yeni iş yerlərinin yaradılması və sərmayələrin cəlb edilməsi ilə bağlı zəruri layihələr həyata keçirilmişdir.

**Gerçəkləşdirilən tədbirlər həyatın bütün sahələrində inkişafı təmin etmiş, Nəsimi rayonu, bütövlükdə, 2016-cı ili sevindirici nailiyyətlərlə başa vurmuşdur. Ayrı-ayrı sahələrdə qazanılmış uğurlar aşağıdakı kimi olmuşdur:**

**Əhali.** Rayonun əhalisi ilin sonuna 219,8 min nəfərə çatmışdır. İl ərzində 2067 doğum və 1046 ölüm qeydə alınmış, rayona 351 yeni sakin gəlmişdir.

**Sənaye.** Keçən il, ev təsərrüfatlarında sənaye məhsulu istehsalı ilə məşğul olanların, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət



göstərənlərin işi də nəzərə alınmaqla, əvvəlki illə müqayisədə 1,3 faiz çox – 516094,6 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Bunun 24 faizi istehsalın, 76 faizi isə sənaye xarakterli xidmətlərin payına düşür.

Dövlət sektorunda 182709,5 min manatlıq və ya istehsalın 35,4 faizi qədər, qeyri-dövlət sektorunda isə 333385,1 min manatlıq və ya ümumi həcmin 64,6 faizi səviyyəsində məhsul buraxılmış və xidmətlər göstərilmişdir. Mühüm növ qida məhsulları, əsasən, özəl müəssisələrdə istehsal edilmişdir. İstehlakçılara 629373,8 min manatlıq və ya 1,5 faiz cox məhsul göndərilmişdir. Anbarlarda hazır məhsul qalığı 2765,2 min manatlıq olmuşdur.

**Tikinti.** Kompleksdə iqtisadi və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 1640106,1 min manatlıq investisiya yönəldilmişdir ki, bu, bir il əvvəlkindən 50,9 faiz çoxdur. İstifadə edilmiş vəsaitin 1274698,5 min manatlığı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir ki, bu da əvvəlki ilə nisbətən 33,1 faiz çoxdur. Podratcı təşkilatların gördükləri işlərin həcmi 912012,5 min manatlıq və ya 22,7 faiz artmışdır.

Dövlətə məxsus müəssisə və təşkilatlar əsas katipala 1133012,8 min manatlıq (69 faiz), özəl müəssisə və təşkilatlar isə 507093,3 min manatlıq (31faiz) sərmayə yönəltmişdir. Yerinə yetirilən işlərin həcmi dövlət tikinti müəssisələrində 30133,1 min manatlıq (3,3 faiz), özəl sektorda 881888,7 min manatlıq (96,7 faiz) olmuşdur. Bütün maliyyə mənbələri hesabına 44982,9 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir.

**Nəqliyyat.** Bu sektorda il ərzində 348959,5 min manatlıq xidmət göstərilmişdir.

**Rabitə.** Şəbəkədə müəssisələrə və əhaliyə göstərilən xidmətlər il ərzində 63,6 faiz artaraq 13727,6 min manata çatmışdır.

**Əmtəə bazarı.** Pərakəndə ticarət şəbəkəsində göstərilən xidmətlər 8,1 faiz artaraq 823550,2 min manata çatmışdır. Əmtəə dövriyyəsinin 99,8 faizi özəl sektorun payına düşur. Əhaliyə 438689 min manatlıq pullu xidmətlər göstərmişdir. Bunun 37,6 faizi hüquqi şəxslərin, 48,1 faizi fərdi sahibkarların, 14,3 faizi isə yarmarka və bazarların payına düşür. Satılmış ərzaq məhsullarının həcmi 448885,2 min manat, qeyri-ərzaq malları isə 374665,1 min manat olmuşdur. Əhaliyə 60478,1 min manatlıq və ya əvvəlki ildən 2,4 faiz çox iaşə xidmətləri göstərilmiş, dövriyyə bütünlüklə özəl müəssisələrin hesabına formalaşmışdır.

**Məşğulluq.** “Ərazi məşğulluq proqramı”na əsasən, 1469 nəfər daimi işlə təmin edilmişdir ki, bu da nəzərdə tutulduğundan 669 nəfər çoxdur. Məcburi köçkünlərin 41nəfəri münasib işlə təmin olunmuş, 4-nə işsizliyə görə müavinət ödənilmiş, 6-sı isə peşə kurslarına cəlb edilmişdir. İşlə təmin olunanların 463 nəfəri, peşə hazırlığına cəlb olunanların 48-i, işsizlik müavinəti təyin edilənlərin isə157-si qadınlar olmuşlar. Ümumi işə düzələnlərdən 1143 nəfəri fəhlə, xidmət sahələri işçisi, 326 nəfəri mühəndis-texnik olmuşdur.

Ötən il 770 yeni iş yeri açılmış, 7 yaşayış binasının təmiri ilə bağlı 238 nəfər işlə təmin olunmuşdur. İstehsalın əsassız dayandırılmasının və lüzumsuz ixtisarların qarşısı alınmaqla, 1800-ə qədər adamın işdə qalması təmin olunmuşdur.

**Gəlir.** İqtisadi və sosial sahələrdə muzdla işləyənlərin sayı 2,4 faiz artaraq 149330 nəfərə, orta aylıq əmək haqqı isə 9,2 faiz çoxalaraq 563,4 manata çatmışdır. 1082 ailənin 3945 üzvü, 20 məcburi köçkün ailəsi sosial yardımla təmin olunmuşdur. Hər bir ailəyə düşən yardımın orta aylıq məbləği 150 manata çatmışdır. 280 nəfər tənha, ahıl və əlilə evlərdə sosial-məişət xidməti göstərilmişdir.

**Büdcə xərcləri.** Büdcə təşkilatlarının xərclərini tənzimləmək üçün 5 milyon 256 min 269 manat vəsait proqnozlaşdırmış, bunun 5 milyon 032 min 349 manatı – 95,7 faizi xərclənmişdir.

Nəsimi rayonunda sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərin sökülərək yenidən qurulması, müasir yaşayış binalarının inşa edilməsi, əlavə iş yerlərinin açılması məqsədilə RİH-ə əlavə səlahiyyətlərin verilməsi təklifləri ilə bağlı ötən il Nazirlər Kabinetinə müraciət ünvanlanmışdır. Hökumətin 25 fevral 2016-cı il tarixli 86 saylı müvafiq qərarının icrası ilə əlaqədar Nəsimi Rayon İcra Hakimiyyəti bir sıra işlər həyata keçirmişdir. XIX əsrin sonları və ötən əsrin əvvəllərində tikilmiş, 16206 nəfərin yaşadığı 5771 mənzildən ibarət 226 yaşayış binasının və digər qeyri-yaşayış, sosial təyinatlı obyektlərin sökülərək yenidən qurulması ilə bağlı ərazilərə baxış keçirilmiş, sahibkarların cəlb olunması və layihələndirmə işləri aparılmışdır.

İl ərzində “2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlər də uğurla davam etdirilmişdir. Proqramda əksini tapan qaz, elektirik enerjisi, istilik və su təchizatı, kanalizasiya, abadlıq və yaşıllaşdırma, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, gənclər və idman üzrə bəndlər tam icra olunmuş, təhsil, səhiyyə, mədəniyyətlə bağlı məsələlər qismən həll olunmuşdur. Bir sıra küçə və meydanlarda, xüsusən mikrorayonlar ərazisində son



illərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq, əsaslı təmir-yenidənqurma, asfaltlaşdırma və yaşıllaşdırma işləri ötən il də uğurla davam etdirilmişdir.

Rayon mənzil-kommunal təsərrüfatı, su-kanal, enerji təchizatı və satışı, qaz və istilik xidməti müəssisələrinin işi daim RİH-in nəzarətində olmuş, yaranmış çətinlik və problemlərin aradan qaldırılmasına operativ kömək göstərilmişdir. Yaşayış sahələrində əhalinin rahatlığı, kütləvi dincəlməsi, idmanla məşğul olması və uşaqların əyləncəsi üçün kompleks işlər görülmüşdür. Binaların və evlərin dam örtüklərində, eləcə də istiliklə təchiz olunan 145 binanın istilik sistemində cari təmir işləri yerinə yetirilmiş, tüstü bacaları və ventilyasiya kanalları təmizlənmişdir.

Ərazinin sanitar-təmizlik və ekoloji vəziyyətinə gündəlik nəzarət təşkil olunmuş, yaranan problemlər aradan qaldırılmışdır. Bərk məişət tullantılarının qəbulu üçün 356 ünvanda məntəqə yaradılmışdır. Yağış suları yığılan ərazilər müəyyənləşərək Bakı Şəhər İcra Hakimiyyətinə təqdim olunmuşdur.



Təhsil, səhiyyə, mədəniyyət obyektlərinin işi, qayğıları da daim diqqət mərkəzində olmuş, bu sahələrin fəaliyyətini yaxşılaşdırmaq üçün zəruri tədbirlər həyata keçirilmişdir. Yeni nəslin bilikli və bacarıqlı, vətənpərvər ruhda tərbiyələndirilməsi üçün təsirli vasitələrdən istifadə olunmuş, əhalinin sağlamlığı ilə bağlı kampaniyalar yüksək səviyyədə keçirilmiş, zərərli vərdişlərin qarşısının alınması üçün profilaktik işlər davam etdirilmişdir. Mədəniyyət kollektivləri yerli şənliklərdə fəal iştirak etmiş, ölkədə və xaricdə keçirilən müsabiqə və festivallarda rayonu layiqincə təmsil etmişdir.

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə tarixi günlər və yubileylərlə bağlı kütləvi tədbirlər keçirilmiş, ümumxalq bayramları, ayrı-ayrı peşə günləri təntənə ilə qeyd olunmuş, müxtəlif sahələrdə fərqlənənlər mükafatlandırılmışlar. Əlamətdar günlərdə və el mərasimlərində ehtiyacı olanlara yardım edilmişdir. RİH il ərzində 11100-dən çox vətəndaşa (2014-cü ildə 1975 nəfərə, 2015-ci ildə 5019 nəfərə) yardımlar, maddi kömək göstərmiş, onlardan bir çoxunun mənzil-məişət



şəraiti yaxşılaşdırılmış, imkansız ailələrin uşaqlarının yay istirahət düşərgələrində istirahəti, bayramlarda əyləncəsi təşkili olunmuşdur. Heydər Əliyev Fondunun aztəminatlı təbəqəyə, kimsəsizlərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğısı ictimaiyyətin böyük razılığına və minnətdarlığına səbəb olmuşdur.

Nəsimi rayonu təmsilçilərinin paytaxtda keçirilən beynəlxalq tədbirlərdə, ayrı-ayrı kollektivlərin və sosial qrupların ümumrespublika aksiyalarında fəal iştirakı təmin olunmuşdur. Qeyri-hökumət təşkilatlarının normal fəaliyyətinə hərtərəfli yardım göstərilmiş, aktual mövzularda müxtəlif birgə tədbirlər keçirilmişdir.

Rayona gələn xarici qonaqlara hərtərəfli qayğı göstərilmiş, dostluq əlaqələrinin dairəsi genişləndirilmişdir. Nəsimi rayonu ilə ABŞ-ın San–Dieqo şəhərləri arasında yaranmış münasibətlərin möhkəmləndirilməsi, eləcə də böyük erməni icmasının olduğu Kaliforniyada Azərbaycanın təbliği məqsədilə Nəsimi Rayon İcra Hakimiyyəti başçısının rəhbərliyi ilə nümayəndə heyəti ştatda səfərdə olmuşdur.

Vətəndaşların müəyyən edilmiş vaxtlarda qəbulu, onların müraciətlərinə əsaslandırılmış yazılı cavabların verilməsi, şəffaflığın artırılması, mövcud nöqsanların aradan qaldırılması məsələləri diqqət mərkəzində saxlanmışdır.

Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genilşəndirilməsi məqsədilə RİH başçısının yerlərdə keçirilən səyyar qəbullarında, sakinlərlə görüşlərdə, müşavirələrdə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən geniş yığıncaqlarda ictimai maraq kəsb edən məsələlər geniş müzakirə olunmuş, sakinlərin rəy və təklifləri öyrənilmiş, müvafiq tədbirlər görülmüşdür. İl ərzində RİH-ə vətəndaşların 2229 ərizə və müraciəti daxil olmuş, bir çoxu müsbət həll olunmuş, əsaslıları nəzarətə götürülmüşdür. Yuxarı qurumlara müraciətlərinin sayı azalmışdır.

Bütün bunlardan göründüyü kimi, son bir ildə Nəsimi RİH-in təşəbbüskar, işgüzar və səmərəli fəaliyyəti nəticəsində paytaxtın bu mərkəzi rayonunun sosial-iqtisadi, siyasi-mədəni həyatında ciddi nailiyyətlər əldə olunmuş, ərazi daha da gözəlləşmiş, sakinlərin rifahı yüksəlmişdir. Bütün bunlar yeni nailiyyətlər üçün möhkəm zəmin olmuş, 2017-ci ilin uğurlarına meydan açmışdır.

*(Səhifə Nəsimi Rayon İcra Hakimiyyətinin 2016-cı ilin sosial-iqtisadi yekunları barədə hesabatı əsasında hazırlanmışdır.)*

*Hazırladı:*
*Tahir AYDINOĞLU, “Xalq qəzeti”*